**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№358/1** **09 avqust 2023-cü il**

**2022-ci ilin nəticələri üzrə auditor təşkilatlarının və sərbəst auditorların reytinq səviyyəsinin müəyyən edilməsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü il üzrə iş planının 1.5-ci "2022-ci ilin nəticələri üzrə auditor təşkilatlarının və sərbəst auditorların reytinq səviyyəsinin müəyyən edilməsi" bəndinin icrası ilə əlaqədar Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən Auditorlar Palatası Şurasının 2022-ci il 15 fevral tarixli 340/4 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditorların (auditor təşkilatlarının) reytinqinin müəyyənləşdirilməsi barədə Qayda"ya əsasən hazırlanmış "Yerli auditor təşkilatlarının 2022-ci il üzrə reytinq cədvəli", "Sərbəst auditorların 2022-ci il üzrə reytinq cədvəli", "Transmilli və xarici peşə birliklərinə üzv olan auditor təşkilatlarının 2022-ci il üzrə reytinq cədvəli" və "Böyük dördlük"də auditor təşkilatlarının 2022-ci il üzrə reytinq cədvəli" müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. 2022-ci ilin nəticələri üzrə auditor təşkilatlarının və sərbəst auditorların reytinq səviyyəsinin müəyyən edilməsi ilə əlaqədar hazırlanmış "Yerli auditor təşkilatlarının 2022-ci il üzrə reytinq cədvəli", "Sərbəst auditorların 2022-ci il üzrə reytinq cədvəli", "Transmilli və xarici peşə birliklərinə üzv olan auditor təşkilatlarının 2022-ci il üzrə reytinq cədvəli" və "Böyük dördlük"də auditor təşkilatlarının 2022-ci il üzrə reytinq cədvəli" bəyənilsin (əlavə olunur).
2. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki, iki həftə müddətində "Yerli auditor təşkilatlarının 2022-ci il üzrə reytinq cədvəli", "Sərbəst auditorların 2022-ci il üzrə reytinq cədvəli", "Transmilli və xarici peşə birliklərinə üzv olan auditor təşkilatlarının 2022-ci il üzrə reytinq cədvəli" və "Böyük dördlük"də auditor təşkilatlarının 2022-ci il üzrə reytinq cədvəli" üzrə hər kateqoriyada 1-ci, 2-ci və 3-cü yerləri tutmuş Palatanın üzvlərinə fərqlənmə diplomlarının hazırlanması və təqdim edilməsi təmin edilsin.
3. 2022-ci ilin nəticələri üzrə auditor təşkilatlarının və sərbəst auditorların reytinq səviyyələrini "Auditorların (auditor təşkilatlarının) reytinqinin müəyyənləşdirilməsi barədə Qayda"ya uyğun olaraq hazırladığına görə Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova təşəkkür elan edilsin.
4. Sədrin müşaviri F.Qarayevə və Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, bir həftə müddətində bu qərarın mətninin və "Yerli auditor təşkilatlarının 2022-ci il üzrə reytinq cədvəli", "Sərbəst auditorların 2022-ci il üzrə reytinq cədvəli", "Transmilli və xarici peşə birliklərinə üzv olan auditor təşkilatlarının 2022-ci il üzrə reytinq cədvəli" və "Böyük dördlük"də auditor təşkilatlarının 2022-ci il üzrə reytinq cədvəli"nin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**